# QEYRİ-ÜZVİ KİMYANIN ÖYRƏDİLMƏSİNDƏ ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞLƏRİNİN SİSTEMİ

**Ə.N.Qurbanov, S.N.Hüseynzadə, J.E.Məstəlili**

*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

Müəllim əmək prosesində aktiv formada şagirdləri əməyə, istehsalata hazırlamağa çalışır. Bu məqsədlə kimyanın tədrisi prosesini inkişaf etdirir. Bunun üçün dərsin effektivliyinə çalışılır. Məqalədə bu sahədə görülməsi zəruri olan məsələlər təhlil edilir. Dərsdə şagirdlərin müstəqil işləri, bu işlərin qoyuluşu və icrası yolları göstərilir.

Qeyri-üzvi kimyadan şagirdlər üç məqbul verməlidirlər: birincisi iki mövzunun təkrarı bunlar VIII sinifdə keçilən mövzulardır: "Qeyri-üzvi kimyanın mühüm sinifləri", "Maddələrin quruluşu" olmalıdır. D.İ.Mendeleyevin kimyəvi elementlərin dövri qanunu və dövri sistem, IX sinifdə "Elektrolitik dissosiasiya nəzəriyyəsi", ikinci mövzu "Azot və fosfor", üçüncü mövzu "karbon və silisium" olmalıdır. Kimyanın əsaslarına aid materialın VII-VIII siniflərdə öyrənilməsinin nəticələrini bilmək üçün şagirdlərin qazandıqları bilik və bacarıqlar mütləq yoxlanmalıdır. Burada:

- Atom- molekul təliminin əsas müddəalarını bilmək;
- Parçalanma, birləşmə və əvəzetmə, metalların hidroksidləri, turşu, oksid anlayışlarını müəyyən etmək və fərqli cəhətləri aşkar etmək;
- Qeyri-üzvi birləşmələrin sinifləri arasında genetik əlaqəni müəyyən etmək. Burada hidroksidlər, turşular, oksidlər və əsaslar arasında genetik əlaqə nəzərdə tutulur;
- Valentliyə görə formulun tərtibi, formula əsasən valentliyin təyini, mürəkkəb maddələri xarakterizə edən reaksiya tənliklərinin tərtib edilməsi;
- Dövri qanun və dövri sistemin mahiyyətini elmi formada vermək, elementlərin qrup və dövr daxilində dəyişməsini konkret misallarla göstərmək və kimyəvi rabitənin növünü göstərmək;
- Kimyəvi elementlərin xassələrini izah etmək, onu dövri sistem və atomun quruluşu ilə əlaqələndirmək;
- Elektrolitik dissosiasiya nəzəriyyəsini, elektrolitlər və qeyri-elektrolitlər anlayışlarının öyrənilməsində qazanılan biliklərin müəyyən edilməsi, hidroliz haqqında qazanılmış biliklərin aşkar edilməsi;
- Elektroliz haqqında biliklərin müəyyən edilməsi, onun sənaye əhəmiyyətinə aid biliklərin sistemləşdirilməsi.

Göstərilənlər qeyri-üzvi kimyanın öyrənilməsində qarşıya qoyulan tələbatın

qısa xülasəsi olub, hər bir müəllim bu istiqamətdə şagirdlərin bilik və bacarıqlarını müəyyən etməlidir.

"Qeyri-üzvi birləşmələrinin mühüm sinifləri " mövzusunda material IX sinfin başlanğıcında aparılır və VIII sinifdə öyrənilmiş material bir daha təkrar edilir. Aşağıdakı mövzular təkrar olunur:

- "Atom-molekul təlimi". Əsas kimyəvi anlayışlar və qanunların atom-molekul təlimi baxımından izahı.
- "Kimyəvi işarə". Kimyəvi tənlik və formul üzrə miqdari hesablamaların aparılması.
- Oksidlər, əsaslar, turşular, duzlar

Göstərilən materialları şagirdlər öyrənməsi və təkrar etməsi üçün dərslikdə istifadə edə bilər. Müəllim 1-ci sxemdən istifadə edərək şagirdlərin müstəqil çalışmalarını və bəzi reaksiya tənliklərini yazmağı tapşırır.

Sxem 1. Qeyri-üzvi maddələrin təsnifatı.




Müəllim duzların formulu və adlandırılmasını cədvəl şəklində verməli, şagirdlərin müstəqil çalışmalarına nail olmalıdır.

Cədvəl 1.

Duzların formulu və adlandırılması

| Metal | Turşulardan əmələ gələn duz | | |
|---|---|---|---|
| | HCl | $H_2SO_4$ | $H_3PO_4$ |
| Mg(II)<br>K(I)<br>Al(III)<br>Ca(II)<br>Fe(II)<br>Fe(III) | $MgCl_2$<br>maqnezium xlorid | $MgSO_4$<br>maqnezium sulfat | $Mg_3(PO_4)_2$<br>maqnezium fosfat |

Cədvəl 2-də verilmiş tapşırığı yazın, orada oksid, əsas, turşu və duzları seçib yazın. Cədvəli düzgün doldurmaq şagirdlərin bilik səviyyəsindən asılı olaraq onların müstəqil işlərinin nəticəsi olacaqdır.

Formullar verilir, onu seçib cədvəldə yazmaq tələb olunur. Birləşmələr: KOH, $H_2SO_4$, ZnO, $CaCl_2$, $Fe(OH)_3$, HCl, $CO_2$, $Ba(NO_3)_2$, $HNO_3$, $Na_2O$, $Ba(OH)_2$, $Al_2(SO_4)_3$, $H_2CO_3$, $P_2O_5$, $CaHPO_4$, $CuSO_4$, $NaHCO_3$, $H_3PO_4$, Mg(OH)Cl cədvəldə uyğun xanalarda yerləşdirilməlidir.

Cədvəl 2.

| Oksid | Əsas | Turşu | Duz |
|---|---|---|---|
| | | | |

Cədvəl 2-ni aydınlaşdırmaq üçün reaksiya tənlikləri yazılmalı və onların kimyəvi xassələri xarakterizə olunmalıdır. Müəllim cədvəlin və verilən sxemin interaktiv formada təhlilin aparmaqla şagirdlərin biliklərini qiymətləndirməlidir.

Sxem 2.




Verilən reaksiya tənliklərindən hansının getməsi mümkündürsə onu yazın.

$K_2O + H_2O \rightarrow$ $\quad$ $CaO + H_2O \rightarrow$

$CuO + H_2O \rightarrow$ $\quad$ $Fe_2O_3 + H_2O \rightarrow$

$Al_2O_3 + H_2O \rightarrow$ $\quad$ $BaO + H_2O \rightarrow$

Aşağıdakı sxemi tamamlayın:




Biliyi daha da sistemləşdirmək məqsədilə müəllim aşağıdakı çevrilmələrin reaksiya tənliklərini yazmağı tapşırır:

$Ba \rightarrow BaO \rightarrow Ba(OH)_2 \rightarrow BaSO_4$

$SO_2 \rightarrow SO_3 \rightarrow H_2SO_4 \rightarrow Na_2SO_4 \rightarrow BaSO_4$

$P \rightarrow P_2O_5 \rightarrow HPO_3 \rightarrow H_3PO_4 \rightarrow Ca_3(PO_4)_2$




$Zn \rightarrow ZnO \rightarrow Zn(OH)_2 \rightarrow Zn(NO_3)_2$

$ZnO \rightarrow H_2ZnO_2 \rightarrow K_2ZnO_2$




Dövri qanunu və elementlərin dövri sistemini təkrar edərkən, mütləq atomun quruluşunu təkrar etməli və kimyəvi rabitənin növləri izah olunmalıdır. Bu məqsədlə element atomunun tərkibi sxem şəklində verilməlidir:

Sxem 3.



Şagirdlər bilməlidir: atom elektroneytratal hissəcikdir, atomun kütləsi onun nüvəsində toplanıb, elektronun kütləsi əhəmiyyətli dərəcədə kiçikdir. Protonların sayı atomun nüvəsinin yükünə bərabərdir.(elementin sıra nömrəsinə)

Elementin atom kütləsindən nüvəsinin yükünü çıxdıqda neytronların sayı müəyyən edilir. Elektronların sayı elementin nüvəsinə bərabər olub, nüvə ətrafında energetik səviyyələrdə paylanır. Şagirdlər bilməlidir ki, hər bir elektron təbəqəsində elektronlar s-, p-, d-, f- yarımsəviyyələrdə paylanır; $s^2$-, $p^6$-, $d^{10}$-, $f^{14}$- elektron yerləşir.

Müəllim şagirdlər arasında elementlərin elektron quruluşunu yazmağı tapşırır.

Atomun quruluşunu öyrəndikdən, qazanılan bilikləri möhkəmləndirdikdən sonra kimyəvi rabitə, onun növlərinə aid tapşırıqlar həll edilir. Bu məqsədlə sxemdən istifadə olunur.

Sxem 4.




Sxem əsasında suallar tərtib edilir və müsahibə aparılır.

1. Hansı birləşmələr ion birləşmələri adlanır? Misallar göstərin.
2. Kovalent qeyri- polyar rabitə necə yaranır?
3. İon birləşmələrində elementin oksidləşmə dərəcəsi nəyə bərabərdir?
4. Kovalent qeyri- polyar rabitənin davamlılığı nədən asılıdır?
5. Rabitənin polyarlığı necə dəyişilir?

Müəllim verilən sual və izahatla şagirdlərin nəzəri biliklərinin möhkəmləndirilməsinə çalışır. Şagirdlərin müstəqil işlərinin sonunda praktik iş icra olunur. Bu dərsdə qeyri-üzvi kimya kursuna aid eksperimental tapşırıqlar icra edilir. Bu dərsdə qeyri-üzvi birləşmələr arasında genetik əlaqənin ümumiləşdirilməsi və sistemləşdirilməsi ilə biliklərin möhkəmləndirilməsi, praktik işlərin icrası ilə yeni bacarıqların qazanılmasına nail olmaqdır. Eksperiment vasitəsilə maddələrin bir-birnə çevrilməsinin həyata keçirilməsi

şagirdlərin bu sahəyə marağının artırılmasına çalışılır.Materialın dərindən mənimsənilməsinə nail olmaq məqsədilə hər bir qabaqcıl müəllim tədris ilinin sonunda "Qeyri- üzvi maddələr təbiətdə" mövzusunda ümumiləşdirmə aparır. Bu dərsdə şagirdlər təbiətdə maddələrin çevrilmələri, elementlərin canlı və cansız təbiətdə dövranı sahəsində şagirdlərin biliklərinin ümumiləşdirilməsi və qiymətləndirilməsi həyata keçirilir. Qabaqcıl məktəblərdə turşu, əsas, duzlar və amfoter hidroksidlərin xassələrini dərindən mənimsəmək üçün test verilir və şagirdlərin müstəqil icrası nəzərdə tutulur:

1. Müxtəlif metalların duru sulfat turşusuna təsirini öyrənin.

1-ci qrup şagirdlərə: Fe və Cu
2-ci qrup şagirdlərə: Mg və Pb
3-cü qrup şagirdlərə: Zn və Sn
4-cü qrup şagirdlərə: Cu və Zn

Təcrübələrin nəticələri təhlil olunur.

2. Başqa sinif nümayəndələrinin duru sulfat turşusuna təsirini öyrənin:

1.CuO və $SiO_2$ (qızdırmaqla)
2. NaOH və HCl (lakmus iştirakı)
3. $Na_2SO_3$ və KCl
4. $CaCO_3$ və $KNO_3$

Təcrübələrin nəticələrini təhlil edin.

**İstifadə edilmiş ədəbiyyat:**

1. М.А.Гаученова, Задания для самостоятелъной работы учащихся по химии. М:,Просв 1982, с.48
2. V.M.Abbasov. Kimya 8 – 9 sinif dərslik. Bakı, 2014,s.49
3. Н.Е.Кузнецова, И.М.Гитова. Химия 9 класс. М; 2013
4. А.М.Радецкий. Об организации самостоятельной работы с учебником. // Хим. в шк., 2016, № 9, с.5
5. П.И.Пидкаснстый. Самостоятельная позновательная деятельноеть школьников в обучении. М:, 1980
6. В.Л.Риссидр. Проверь с вои здания по неорганической химии. М:, Просв 1981
7. П.А.Оржековский. О самостоятельной постановке целей познания и их достижении. // Хим. в школе. 2017, № 5,с.8

*А.Н.Гурбанов, С.Н.Гусейнзаде, Ж.Э.Масталили*

**Система самостоятельных работ учащихся при изучении неорганической химии**

**РЕЗЮМЕ**

Учитель пытается подготовить в активной форме студентов к трудовому процессу и производству. С этой целью разработан процесс преподавания химии, с этой целью анализируется эффективность урока. В статье анализируются вопросы, которые являются важными в этой области. Показана самостоятельная работа учеников, способы размещения и выполнения этих.

*E.N.Gurbanov, S.N.Huseynzadeh, J.E.Mastalili*

**The system of students' independent works in learning inorganic chemistry**

**SUMMARY**

At the labour process a teacher tries to prepare students for labour and industry in the active form. For this purpose he develops the process of styding chemistry. That is why he tries for the efficiency of the lesson. The reasons which are necessary to do are analysed in this article. The students' individual independent works at the lesson, the ways of doing these works are shown there.

**Açar sözlər:** turşu, duz, metal, atom, proton, neytron, çevrilmə, sxem, reaksiya, müstəqil iş

**Ключевые слова:** кислота, соль, металл, атом, протон, нейтрон, превращение, схема, реакция, самостоятельная работа

**Key words:** acid, salt, metal, atom, proton, neutron, transformation, scheme, reaction, independent work.